

**VAQİF ƏZİZ**

# Hamıdan dövlətliyəm

***Qəhrəman ana, son dərəcə nəcib insan Qətibə Mehdi qızı Şirinovanın şirin dili ilə***

Qəhrəman anayam mən,
On uşaq böyütmüşəm.
Tox etməkçün onları,
Bəzən sünbül ütmüşəm.

Vaxt olub ki, gecəni,
Mən gündüzə qatmışam.
Rahatlıq bilməmişəm,
Sübhə yaxın yatmışam.

Unutmuşam keçmişi,
Saçıma yağsa da qar.
Bu günlə yaşayıram,
Artıq yetmiş yaşım var.

Kürəkənlər, gəlinlər,
Ətrafıma dolubdu.
Xudaya, yadlar gəlib,
Doğma balam olubdu.

Qazan düşməyir yerə,
Ocağımdan, odumdan.
Adımı deyən yoxdur,
Adım çıxıb yadımdan.

Nəyimə gərək indi,
Sərvət mənim, var mənim?!.
Hamıdan dövlətliyəm,
On beş nəvəm var mənim!

Hamı ye deyir mənə,
Yorulmuşam yeməkdən.
Dilimdə can bitibdi,
Onlara "can" deməkdən.

Ətirli çiçəyidir,
Hərəsi bir qucağın.
Odu, hərarətidir,
Hərəsi bir ocağın.

Aylinin şirinliyi,
Lap həddini aşıbdı.
Onun dəcəlliyindən,
Könlüm cavanlaşıbdı.

"Nənə!" deyəndə sanki,
Dünya bəxş edir mənə.
Onun nurlu üzündən,
Öpürəm dönə-dönə.

Xoşbəxtdir yurdumuzun,
Hər eli, hər obası.
Olaydı bizlə birgə,
Aylinimin babası.

Olsa da oğul, uşaq,
Yenə içimdə təkəm.
Tənhalıq adlı yükü,
Gücüm qalmayıb çəkəm.

Zorla məni yedirdər,
Özü yavan yeyərdi.
Rəhmətlik şirin-şirin,
Mənə "canım" deyərdi.

Hər yadıma düşəndə,
Selə dönür göz yaşım!
Kaş görəydi bu günü,
Mənim ömür yoldaşım!